***- Azərbaycan Respublikasının Tarif Şurası tərəfindən təsdiq olunmuş yuxarıda göstərilən əsas tariflərlə yanaşı, əhali və təşkilatlara göstərilən servis xidmətlərinin və digər əlavə telefon rabitəsi xidmətlərinin tarifləri "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, telekommunikasiya operatorları tərəfindən sərbəst şəkildə tənzimlənir.**

**02.12.2013**

**Sabit şəbəkə operatorları tərəfindən ölkə daxilində təşkil olunan rəqəmli rabitə kanallarından aylıq istifadə tariflərinin tənzimlənməsi barədə**

**QƏRAR № 4**

**AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASI**

**QƏRAR №4**

**Bakı şəhəri, 2 dekabr 2013-cü il**

**Sabit şəbəkə operatorları tərəfindən ölkə daxilində təşkil olunan rəqəmli rabitə kanallarından aylıq istifadə tariflərinin tənzimlənməsi barədə**

**Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2005-ci il tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"yə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2005-ci il tarixli 247 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"na uyğun olaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası QƏRARA ALIR:**

**1. Ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən sabit şəbəkə operatorlarının müvafiq obyektlərindəki kanalyaradıcı avadanlığa qoşulmaqla rəqəmli rabitə kanalından (portundan) istifadə xidmətləri üzrə aylıq tariflər ƏDV daxil olmaqla aşağıdakı səviyyədə təsdiq edilsin:**

| **№** | **Tutumun həcmi** | **Tariflər** (manat) |
|---|---|---|
| 1. | 32 kb/s | 4,0 |
| 2. | 128 kb/s | 9,0 |
| 3. | 256 kb/s | 14,0 |
| 4. | 512 kb/s | 20,0 |
| 5. | 1 mb/s | 30,0 |
| 6. | 2 mb/s | 50,0 |
| 7. | 10 mb/s | 250,0 |
| 8. | 100 mb/s | 400,0 |

**2. Ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən sabit şəbəkə operatorları tərəfindən ölkə daxilində təşkil olunan rəqəmli rabitə kanallarına qoşulma haqqı tutumdan asılı olmayaraq ƏDV daxil olmaqla 50,0 manat təsdiq edilsin.**

**3. Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının aşağıdakı qərarları ləğv edilsin:**

**3.1. Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 12 dekabr 2002-ci il tarixli iclasının qərarına əsasən 4 nömrəli Protokol ilə təsdiq edilmiş "Bölmə IV - Şəhər və kənd telefon rabitəsi xidmətləri üçün tariflər";**

**3.2. Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 12 dekabr 2002-ci il tarixli iclasının qərarına əsasən 4 nömrəli Protokol ilə təsdiq edilmiş "Bölmə IV - Şəhər və kənd telefon rabitəsi xidmətləri üçün tariflər"ə 23 may 2003-cü il tarixli iclasının qərarına əsasən 5 nömrəli Protokolu ilə təsdiq edilmiş dəyişikliklər;**

**3.3. Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 23 iyul 2004-cü il tarixli iclasının qərarına əsasən 9 nömrəli Protokol ilə təsdiq edilmiş "Bölmə III - Şəhərlərarası və beynəlxalq telefon rabitəsi xidmətləri üçün tariflər";**

**3.4. Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 5 yanvar 2005-ci il tarixli iclasının qərarına əsasən təsdiq edilmiş 11 nömrəli Protokolunun "1 saylı "Rabitə xidmətləri üçün tariflər" preyskurantının IV "Şəhər və kənd telefon rabitəsi xidmətləri üçün tariflər" bölməsinə dəyişiklik edilməsi barədə" hissəsi;**

**3.5. "Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin "Bölmə IV "Şəhər və kənd telefon rabitəsi xidmətləri üçün tarifləri"nə dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 30 aprel 2008-ci il tarixli 4 nömrəli Qərarı;**

**3.6. "Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2002-ci il 23 dekabr tarixli Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin rabitə xidmətləri üzrə "Bölmə IV "Şəhər və kənd telefon rabitəsi xidmətləri üçün tariflər"ə və 2004-cü il 23 iyul tarixli Bölmə III "Şəhərlərarası və beynəlxalq telefon rabitəsi xidmətləri üçün**

**tariflər"ə dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 30 dekabr 2008-ci il tarixli 8 nömrəli Qərarı.**

**4. Bu qərar 1 yanvar 2014-cü il tarixindən qüvvəyə minir.**

**Azərbaycan Respublikası**
**Tarif (qiymət) Şurasının sədri Şahin Mustafayev**